"Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir"
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

27 aprel 2018-ci il № 2 (251) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə

# RƏSMİ XRONİKA

Martın 30-da Bakıda, İçərişəhərdə Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin açılış mərasimi olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər. Birinci vitse-prezident Mehriban Əliyeva Mərkəzin binasında yaradılmış şəraitlə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Belarus Respublikasının Baş nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momanini, Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın başçılıq etdiyi nümayəndə heyətini, Hindistan Respublikasının xarici işlər naziri xanım Suşma Svaracın başçılıq etdiyi nümayəndə heyətini, Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilini qəbul edib.

Aprelin 5-də Bakı Konqres Mərkəzində «Davamlı inkişaf naminə beynəlxalq sülh və



təhlükəsizliyin təşviq edilməsi» mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev konfransın açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 6-da Bakı Ekspo Mərkəzində «AITF-2018» XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və «HOREX Caucasus-2018» XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar.

Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Aprelin 11-i müasir müstəqil Azərbaycanın tarixində növbəti prezident seçkiləri günüdür.

Səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Bu anı respublikamızın və xarici ölkələrin



mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.

Sonra birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs verdilər.

Aprelin 11-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Türkiyə Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb. Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Rəşid Əlimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Aprelin 12-də Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Aprelin 12-də bir sıra hökumət və dövlət başçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edərək onu prezident seçkilərində inamlı qələbə qazanması ilə əlaqədar təbriklərini çatdırıblar.



Aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkilərində İlham Əliyevin inamlı qələbə qazanması münasibətilə Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda möhtəşəm konsert proqramı təşkil olunub. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər. Prezident İlham Əliyev tədbirdə çıxış etmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva gənc azərbaycanlı ixtiraçılar-dünyada şöhrət qazanmış Reynerci (Rainergy) startapının təsisçiləri Reyhan Camalova və Zəhra Qasımzadə ilə görüşüb.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi yenidən prezident seçilməyi münasibətilə təbrik etmiş, ən xoş arzularını çatdırmışdır.

Avropa Şurasının baş katibi Torbyorn Yaqland yenidən Azərbay-



can Respublikasının Prezidenti seçilməyi münasibətilə İlham Əliyevi təblirk etmiş, Avropa İnsan Hüquqları Konvensiyasına əsaslanan insan hüquqları, demokratiya və qanunun aliliyi standartlarının üstünlüyünün Azərbaycanda təmin olunması istiqamətində birgə sıx işləmək niyyətini ifadə etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevi yubileyi münasibətilə təbrik edib, onu Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə və elmin inkişafında böyük



xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 18-də Milli Məclisdə andiçmə mərasimi keçirilib. Andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət edib.

Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Dövlət Bayrağı Meydanında olublar.

Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amanonu qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu, NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Rusiya Federasiya-



sının iqtisadi inkişaf naziri Maksim Oreşkini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfərə gəlib. Rəsmi səfəri çərçivəsində Ankaradakı Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət etdi. Aprelin 24-də Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə şam ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfəri başlayıb.

Aprelin 26-da Prezident İlham Əliyev Londonda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Görüşdə "Şahdəniz" layihəsi üzrə görülən işlər, həmçinin bu ilin iyununda TANAP layihəsinin açılışı ilə bağlı fikir mübadiləsi aparıldı. "Şəfəq-Asiman" strukturu üzrə imzalanmış hasilatın pay bölgüsü sazişi əsasında görülən işlərin intensivləşdirilməsinin əhəmiyyəti qeyd edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Londonda Britaniya parlamentinin bir qrup üzvü ilə görüşüb.

**AZƏRTAC.**

# BİRİNCİ RÜBÜN YEKUNLARI MÜZAKİRƏ EDİLMİŞDİR

**(Hesabat yığıncağından qeydlər)**



Bu günlərdə rayonumuzda 2018-ci ilin birinci rübü üzrə sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib.

Hesabat məruzəsi ilə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübündə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrdən danışmışdır. İlin əvvəlindən ölkənin sosial-iqtisadi inkişafında qazanılmış nailiyyətlərdən bəhs etmşdir. Bildirmişdir ki, Nazirlər Kabinetinin geniş iclasında Prezident İlham Əliyevin qeyd etdiyi kimi, «Azərbaycan bu müddət ərzində uğurla inkişaf etmişdir, qarşımızda duran bütün vəzifələr artıqlaması ilə yerinə yetirilir. Ölkəmiz güclənir, hərtərəfli inkişaf edir.»

Natiq daha sonra 2018-ci ilin birinci rübündə Siyəzən rayonunda görülmüş işləri geniş təhlil edərək vupğulamışdır ki, sosial-iqtisadi göstəricilər yüksəkdir, rayonun sosial-iqtisadi inkişafını əks etdirən makroiqtisadi göstəricilər qarşıya qoyulmuş vəzifələrin uğurla həll edildiyindən xəbər verir. İqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 22,5 faiz artmışdır.

Hesabat məruzəsində həmçinin ölkədə geniş vüsət alan tikinti, abadlıq işlərinin Siyəzən rayonunda da yüksək templə inkişaf etdirildiyi bildirilmişdir. Şəhərin ayrı-ayrı küçələrində, çoxmənzilli yaşayış binalarında görülmüş yenidənqurma və əsaslı təmir işlərinin bundan sonra da davam etdiriləcəyi nəzərə çatdırılmışdır.

Məruzə ətrafında çıxışlarda əldə olunmuş uğurlardan danışmaqla yanaşı, bu gün həllini gözləyən, qarşıda duran vəzifələrdən də ətraflı söz açılmışdır.

Sonra Şura iclasının qərar layihəsi oxundu.

İclasa yekun vuran Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov qarşıda duran vəzifələri bir daha xatırlatdı. Nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı aidiyyəti idarə və müəssisə rəhbərlərinə öz tapşırıqlarını verdi. Bildirdi ki, bütün xalqımız kimi, Siyəzən rayonunun sakinləri də ümummilli lider Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevə səs verdi. Bütün bunlarsa deməyə əsas verir ki, İlham Əliyevin qarşıya qoyduğu vəzifələri də uğurla yerinə yetirəcək, daha böyük uğurlara imza atacağıq.

«Çıraq»

# SƏYYAR GÖRÜŞ KEÇİRİLMİŞDİR



Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun növbəti səyyar qəbulu Tuğay kəndində keçirilmişdir. Qəbulda Siyəzən Rayon İcra Hakimiyyətinin məsul işçiləri, rayonda fəaliyyət göstərən aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərləri iştirak etmişdir.



Öncə Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov ötən görüşdən sonra kənddə görülmüş işlər, vətəndaşların problemlərinin həlli ilə bağlı həyata keçirilmiş tədbirlər barədə məlumat vermişdir. Qeyd edilmişdir ki, Bakı-Rusiya Federasiyası avtomobil yolundan Yenikənd kəndindən keçməklə Tuğay kəndinin mərkəzinədək uzanan yol əsaslı təmir edilmişdir. Bundan başqa kəndin elektrik təsərrüfatı yenidən qurulmuş və hazırda yeni modul tipli məktəb binasının tikintisi davam edir.

Görüşdə çıxış edən kənd ağsaqqalları görülmüş işlərə görə ölkə başçısı cənab İlham Əliyevə xüsusi minnətdarlıqlarını bildirmişlər. Vətəndaşların müraciətləri əsasən yaz mövsümü ilə əlaqədar suvarma suyunun çatışmazlığı barədə olmuşdur. İcra Hakimiyyətinin başçısı tərəfindən qəbulda iştirak edən Suvarma Sistemləri İdarəsinin rəhbərliyinə müvafiq tapşırıq verilmişdir.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun kəndlərdə yaşayan sakinlərlə görüşləri müəyyən olunmuş qrafikə uyğun olaraq davam edir. Görüşlər zamanı qaldırılan problemlər yerindəcə nəzarətə götürülür, həlli üçün aidiyyəti üzrə tapşırıqlar verilir.

"Çıraq"

# NOVRUZUN GƏLİŞİ RUHA DAD VERİR

Təbiətin ən gözəl çağıdır. Öz yaşıl donunu geyinib göz oxşayır. Hər yanda bir canlanma, xoş əhval-ruhiyyə hökm sürməkdədir. Hər tərəfdə səliqə-sahman yaradılır, təmizlik işləri görülür.

Baharın gəlişi sanki insan ruhuna yeni dad vermiş, arzu və duyğuları yeni avazla kökləmişdir. Üzlərdəki xoş təbəssüm, gözlərdəki həyat eşqi daha da artmışdır. Axı bahar həm də yeni arzular, yeni məqsədlər deməkdir. Kimi təzə mənzilin təməlini qoyur, kimi toy tədarükünü görür, kimi də əsgər övladının görüşünə hazırlaşır. Təki başımız həmişə xoş işlərə qarışsın, qapılarımız xoş xəbərlə döyülsün.

Yazın gəlişi rayonumuzda da böyük təmtəraqla qeyd edilmişdir. Şəhərin Bayraq Meydanında keçirilmiş ümumrayon Novruz şənliyində yüzlərlə insan bayram sevinclərini bölüşmüşdür. Şənlikdə şəhər sakinləri ilə yanaşı, ətraf kəndlərdən gələnlər də iştirak etmşlər.

Bayramsayağı bəzədilmiş Bayraq Meydanında Novruz tonqalları qalanmış, al-əlvan bayram xonçaları tutulmuşdur. Novruzun atributları olan yamyaşıl səmənilər, Bahar qız, Kosa, Keçəl də öz yerində. Onlar şənliyə toplaşanlarla əylənir, şux zarafatları, məzəli hərəkətləri, söhbətləri ilə ətrafdakıları şənləndirirdilər. Kəndirbazların məharətli çıxışları şənliyə toplaşanların xüsusi marağına səbəb oldu.

Yerli, həmçinin Bakıdan gəlmiş musiqiçilərin bir-birindən maraqlı çıxışları hər dəfə böyük alqışlarla qarşılandı.

Novruz şənliyində Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov meydana toplaşanları salamladı. Onların simasında rayon sakinlərini bayram münasibətilə bir daha təbrik etdi, Novruzla bağlı arzularını çatdırdı.

«Çıraq»

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 6 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | cümə axşamı |
| 7 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2018-ci ilin may ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| S. №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1. | Cəndahar kəndi, açıq havada | 04.05.2018 | 12:00 |
| 2. | Qalaşıxı kəndi, açıq havada | 11.05.2018 | 12:00 |
| 3. | Müşkülqazma kəndi, açıq havada | 18.05.2018 | 12:00 |
| 4. | Dağ Quşçu kəndi, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | 25.05.2018 | 12:00 |

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Cəfərov Natiq Xəlil oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Xaçmaz Regional Sukanal idarəsinin Siyəzən abonent işləri sahəsinin rəisi | Cabbarov Eldar Pənah oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 10. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Allahyarov Bəybala Ağa oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 11. | Siyəzən Rayon Kənd Təsərrüfatı İdarəsinin rəis əvəzi | Hüseynov Ənvər Əlbala oğlu | Hər iş günü saat 10:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi əvəzi | Əlibəyov Rəsul Bilal oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

# SOYQIRIM CİNAYƏTLƏRİ-TARİXİMİZİN QANLI SƏHİFƏSİDİR

«Armenakan» (sonralar «Hnçak» adlanan) partiyasının siyasi varisi olan və 1890-cı ildə təsis edilmiş «Daşnaksutyun» partiyasının «İstənilən şəraitdə türkləri qırmaq» və «Böyük Ermənistan» yaratmaq şüarlarını rəhbər tutan erməni-burjua millətçiləri, Çar Rusiyasının şovinist siyasətinin dəstəyi ilə XIX əsrin əvvəllərindən başlayaraq azərbaycanlılara qarşı aramsız soyqırım, kütləvi siyasi terror aksiyaları və deportasiya siyasəti həyata keçirmişlər.

Erməni daşnakları tərəfindən azərbaycanlılara qarşı 1905-1907, 19018-1920, 1947-1956-cı illərdə reallaşdırılmış bu siyasət, 1988-ci ilin əvvəlindən xüsusilə genişləndirilmiş və həyata keçirilmiş 850-dən artıq terror-təxribat əməliyyatları nəticəsində 2 milyondan artıq soydaşımızın həyatına son qoyulmuş, əmlakları, varidatları talan olunaraq mənimsənilmiş, yüzlərlə mədəni-tarixi abidələrimiz dağıdılaraq məhv edilmişdir.

## Siyəzən faciəsi barədə

Ata-babalarımızın uzun illər məskunlaşdıqları Siyəzən rayonu ərazisində (keçmiş Quba qəzasında) törədilmiş qanlı faciənin miqyası və nəticələrinin dəqiqləşdirilməsi FİK-nin materialları əsasında mümkün olmuşdur.

Ölkədə baş verən erməni qırğınlarından qabaqcadan xəbər tutan dəmiryoluna yaxın kəndlərimizin sakinləri onları gözləyən təhlükədən qurtulmaq üçün ailə üzvləri (qadınları, qocaları, uşaqları) təhlükəsiz yerlərə köçürülüb, özləri evlərini, təsərrüfatlarını, əmlaklarını qorumaq üçün kəndlərində qalmalı olurlar.

Terrorçu «Daşnaksutyun» təşkilatının göstərişlərini icra etmək üçün 8 eşalondan ibarət erməni-daşnak «Cəza dəstəsi», Hamazaspın rəhbərliyi altında 1918-ci ilin aprel ayının sonuna yaxın Bakı-Yalama dəmir yolu xətti ilə Quba şəhərinə göndərilir. Qaniçən cəlladlar yolüstü Siyəzən (Qızılburun) icmasının dəmir yoluna yaxın dağlıq, dağətəyi və düzənlik ərazilərində yerləşən 15 kəndinə və 1 qəsəbəsinə basqın edərək qətl, qarət, talan və yanğın törədərək, dinc sakinləri (qocaları, qadınları və uşaqları) odlu silahla, süngü ilə öldürmüşlər.

Əlixanlı, Sədan, Siyəzən və Tuğay kənd icmalarının starşinaları Nəcməddin İsmayıl oğlunun, Dadaş Musa oğlunun, Balaəmi Zülfuqar oğlunun, və Hüseynəli bəy Hüseyn bəy oğlunun istintaqa təqdim etdikləri ifadə və sənədlərlə tanışlıq göstərir ki, Əlixanlı kəndinin sabiq starşinası Mirzəməmməd Dostəli oğlunun və həmkəndlisi Gülhüseyn Məhərrəm oğlunun gözlənilən təhlükədən qurtulmaq üçün sülh məramı ilə ermənilərin qarşısına gedərək, evlərinin dağıdılmaması, insanların qətlə yetirilməməsi üçün xahişlərinə məhəl qoymayan erməni cəlladları onları qəddarcasına qətlə yetirmişlər.

Eynibulaq kənd mollası Molla Əlihəsən Kərbalayı Tağı oğlunun kənd məscidinin yandırılması nəticəsində yanmış Qurani-Kərim kitabının qalıqlarını FİK-na təqdim etməsi erməni quldurlarının müsəlmanların dini heysiyyatlarına toxunmalarına bir nümunədir.

Sədan kənd sakinləri İmamə adlı qadının, Şahnaz İbrahimxəlil qızının, Qərib Məlik oğlunun xəstə olduqları halda öldürüldükləri, azyaşlı qız uşağı Püstə Məmmədbəy qızına xəsarətlər yetirilməsi nəticəsində 12 gündən sonra öldüyü, ermənilərin kənddə yanğın törətmələri nəticəsində xeyli sayda insanlara, o cümlədən də kənd mollaları İbn Hacı Əfəndinin və Qiyasəddin Əfəndinin əmlakına böyük məbləğdə maddi ziyan vurulması, vəhşiliyin əlamətidir.

1918-ci ilin aprel ayının ortalarında əksəriyyəti ermənilər olan dəstənin Qara Siyəzən və Nardaran kəndlərində 13 kişini, 1 qadını və 1 uşağı qəddarcasına qətlə yetirmələri insanlığla bir araya sığmayan cəhətdir.

Qızılburun dəmiryolu stansiyası ərazisində Ağ Siyəzən kənd sakini Mir Həmdulla Seyid Zəki' oğluna məxsus xeyli miqdarda daşınan əmlakın ermənilər tərəfindən (taxıl, arpa, qoşqu atları, taxta-şalban materialları və ev əmlakları) talanması nəticəsində ona ümumilikdə 74.000 rubl maddi ziyan dəymişdir.

Erməni quldurları Tuğay, Əlixanlı, Eynibulaq, Çarxana və Sədan kənd məscidlərinin yandırılmasından əvvəl xeyli sayda Qurani-Kərim kitablarını və digər dini ədəbiyyatları göz qabağında silah süngüsü ilə cırıb korlayaraq yararsız hala salmış, yandırıb məscidlərə od vurmaqla musəlmanların dini heysiyyatlarını alçaltmışlar.

Dağlara çəkilmiş Qalaşıxı icmasının 3 min nəfərə yaxın əhalisi dəmiryolu kənarındakı torpaqlarda biçilməmiş taxıl zəmilərinin, əhalinin və əmlaklarının erməni talanlarından qorunması üçün Bakı Sovetinin rəhbərliyinə müraciət etmələri də erməni vəhşiliyindən xəbər verir.

Hadisələrin şahidi olmuş Quba qəzasının Dəvəçi nahiyəsinin pristavı 30 yaşlı Şəmsəddin Əfəndinin kəndlərdə ermənilərin qətllər, qarətlər törətməsini, hadisələr vaxtı Hamazaspı şəxsən görüb tanıdığı və s. faktlar öz təsdiqini tapmışdır.

Fövqəladə İstintaq Komissiyasının İstintaq qrupunda toplanmış istintaq materiallarına əsasən, Hamazaspın quldur dəstəsinin Quba qəzasının 122 kəndində, o cümlədən də Dəvəçi icmasında, Ağ Siyəzən, Qara Siyəzən, Nardaran kəndlərində və Siyəzən qəsəbəsində (Qızılburun dəmiryolu stansiyası ərazisində), həmçinin Sədan, Çarxana, Darazarat, Əlixanlı, Böyük (keçmiş Ərəb) Həmyə kəndlərinə hücumu zamanı günahsız soydaşlarımıza qarşı zorakılıq, qətl, qarətlərin törədildiyi, təsərrüfatçı insanların əmlaklarının kütləvi halda yandırılaraq məhv edildiyi, ümumilikdə 60 nəfər (55 kişi, 3 qadın, 2 uşaq) öldürüldüyü, 53 kişinin yaralandığı, 6 məscid, 175 ev, 2 dəyirman, 121 yardımçı tikililərin yandırıldığı, 1209 baş xırda və iribuynuzlu heyvanın talanması nəticəsində 225 nəfər dinc sakinə ümumilikdə 58.121.059 rubl məbləğində maddi ziyan vurulması məlum olmuşdur. Sağlocan və Kolanı kəndlərində yalnız daşınan əmlak oğurluqlarının törədildiyi təsdiqini tapmışdır.

Erməni daşnaklarının törətmiş olduğu qanlı soyqırım cinayəti tarixi şəraitin dəyişməsi nəticəsində Sovet Hökumətinin 1920-ci, il 2 fevral tarixli «amnistiya haqqında» qanuna əsasən xitam olunmuş və bu qanlı cinayətlərin günahkarları zamanında cəzalandırılmamışdır.

Törədilmiş qanlı faciələr sırasında 1918-ci ilin aprel-may soyqırımı özünün misli görünməmiş ağır nəticələri ilə qan yaddaşımızda həkk olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci ilin martın 26-da imzaladığı «31 Mart-Azərbaycanlıların soyqırımı haqqında» Fərmanla erməni millətçilərinin ifşa edilməsinin hüquqi əsası qoyulmuşdur.

1998-ci ildən bəri respublikamızda hər il «31 Mart-Azərbaycanlıların soyqırımı» günü dövlət səviyyəsində qeyd edilir, soyqırımın beynəlxalq ictimaiyyət tərəfindən tanınmasına və erməni faşizminin ifşasına xidmət edir.

İki yüz ildən çox davam edən bu soyqırımı cinayətlərinə tarixi və hüquqi baxımdan ən ədalətli qiymətin verilməsində Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da böyük və tarixi xidmətləri vardır. 2018-ci ilin «Azərbaycan Xalq Cümhuriyyti ili» elan olunması və ölkə başçısının 1918-ci il soyqırımı haqqında imzaladığı Sərəncama uyğun olaraq tədbirlərin davam etdirilməsi dövlət səviyyəsində həyata keçirilməkdədir.

31 Mart soyqırımı xalqımızın böyük faciəsidir. Bu faciələri və onların dərslərini unutmağa mənəvi haqqımız yoxdur.

Zaman-zaman Soyqırımın daha da dərindən öyrənilməsi vətəndaşlarımızda, xüsusilə də böyüməkdə olan nəsillərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə, Azərbaycançılıq ideologiyasının dərindən dərk edilməsinə, gənclərimizin maarifləndirilməsinə əhəmiyyətli dərəcədə öz təsirini göstərəcəkdir.

**Valeh Loğman oğlu SADIQOV,**
**İstefada olan polis polkovnik-leytenantı.**

# DƏYİRMİ MASA KEÇİRİLMİŞDİR

Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə Siyəzən rayon Mədəniyyət Mərkəzində «Sığorta ödənişini alan şəxsin işsiz kimi qeydiyyata alınma və ya yenidən qeydiyyata alınma şərtlərinin və müddətlərinin müəyyən edilməsi Qaydası barədə işəgötürənlərin məlumatlandırılması» mövzusunda tədbir keçirilmişdir.

Sahibkarların, idarə və müəssisə rəhbərlərinin iştirak etdiyi Dəyimri masada Məşğulluq Mərkəzinin mütəxəssisləri, idarə və müəssisələrdən 25 nümayəndə, yerli əlaqələndirmə komitəsinin üzvləri, habelə Rayon İcra Hakimiyyətinin məsul işçiləri iştirak etmişdir.

Dəyirmi masada sığorta ödənişinin verilməsi qaydası, sığorta ödənişini alan şəxsin işsiz kimi qeydiyyata alınma şərtləri barədə geniş müzakirələr aparılmışdır. Tədbirdə dəyirmi masa iştirakçılarını maraqlandıran suallara ətraflı cavablar verilmişdir.

**Etibar HEYDƏROV,**
**Məşğulluq Mərkəzinin direktoru.**

# DÖNSÜN AZƏRBAYCAN CƏNNƏTMƏKANA

Böyükdür amalı, işi, əməli,
Ulu Öndərimdən gəlib təməli,
Çatır hər bir yana uzundur əli,
Xalqının oğludur mənim İlhamım,
Ona köməkçidir Mehriban xanım!

Bir daha sınandı xalqın içində,
Qazandı etibar yenə seçimdə,
Ona heykəl qoydum mən öz içimdə,
Yaşasın xalqımın Qəhrəman oğlu,
Ulu Öndərindir getdiyi yolu.

Odur ilham verən oğula-qıza,
Şanlı qələbəylə gəldik bu yaza,
Onun bənzəri var aya, ulduza,
Hər an işıq saçan kəhkaşandır O,
Doğma millətinə şərəf, şandır, O,

Dayaqsan, köməksən hər vətəndaşa,
Sənə arzum budur: görüm min yaşa,
Uğurla vurasan hər ili başa,
Dönsün Azərbaycan cənnət məkana,
Şöhrəti yayılsın yenə hər yana!

**Firdovsi ƏLƏMOĞLU,**
**şair-həkim,**
**yazıçılar birliyinin üzvü.**

# GƏLƏCƏK UĞURLARIMIZA SƏS VERDİ

11 aprel prezident seçkiləri arxada qaldı. Artıq tarixə qovuşan həmin gündə Azərbaycan xalqı birliyini bir daha nümayiş etdirdi.

Prezident seçkilərində əksəriyyəti müxalifət nümayəndələri olmaqla 8 namizəd mübarizə aparırdı. Bir çox seçkilərdə iştirak etmiş, həyatın hər üzünü görmüş ağsaqqal kimi mən də, mənim yaşıdlarım da çox yaxşı bilirdik: ölkəmizin gələcək taleyi bizim seçəcəyimiz dövlət başçısından asılıdır.

Odur ki, aprelin 11-də seçki məntəqəsinə gedərək mən və ailə üzvlərim birlikdə İlham Əliyevə səs verdik. Biz İlham Əliyevə səs verməklə həm də gələcək uğurlarımıza, vətənimizin çiçəklənməsinə səs verdik.

Son 14 ilə nəzər salaq. Görülən işlərin miqyası o dərəcədə böyük və möhkəmdir ki, sadalamaqla qurtarmaz. Ölkəmiz bu gun inkişafın dinamikasına görə regionda güc mərkəzinə və əsas söz sahibinə çevrilmişdir.

Biz İlham Əliyevə səs verməklə dövlətə və dövlətçiliyimizə sadiqliyimizi bir daha nümayiş etdirdik. Biz lham Əliyevə səs verməklə Azərbaycanın parlaq gələcəyinə səs verdik.

**Azərpaşa ƏLİYEV.**

# YAŞIM AZ OLSA DA...

Mən ilk dəfəydi ki, prezident seçkilərində iştirak edirdim. Odur ki, bir qədər həyacanlı idim. Digər tərəfdən isə daxili qürur hissi keçirir, özümü xoşbəxt sanırdım.

Aprelin 11-də ilk dəfə olaraq səs verəcəyim məntəqəyə gəldim, öz seçimimi etdim. Mən böyük həvəslə layiqli namizədə-İlham Əliyevə səs verdim. Bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Səs verdiyim məntəqədə həm seçicilərin fəallığı yüksək səviyyədə idi, həm də səsvermə tam şəffaf şəkildə kçirildi.

Mən İlham Əliyevə səs verdim. Niyə? Yaşım az olsa da dünyada baş verənlərə diqqətlə baxmağı, olanları götür-qoy etməyi xoşlayıram. Dünyanın əksər ölkələrində çaxnaşmalar, terror hadisələri, müharibələr, qarşıdurmalar və s. baş alıb gedir. Şükürlər olsun ki, bizim ölkəmizdə əmin-amanlıqdır. Xalqımızın xoşbəxt gələcəyi naminə inamlı addımlar atılır. Bu gün Azərbaycan əsl quruculuq meydanını xatırladır. Regionda nüfuz sahibinə çevrilmişdir. Bütün bunlarsa Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Prezident İlham Əliyevin andiçmə mərasimini həyacan və qürur hissiylə televiziyada izlədim. Biz gənclər böyük məmnuniyyətlə qarşıda duran ümummilli məqsədlərin reallaşdırılmasında hörmətli Prezident İlham Əiyevə həmişə dəstək olmağa hazırıq.

**Nihad ŞAHVERDİYEV.**

# TƏBRİK EDİRİK!



**Şəkildə gördüyünüz bu gülərüzlü qızın, Zəhranın 5 yaşı tamam olur.**

**Bu münasibətlə babası Şahbaz, nənələri Şamama, Rübabə, atası Şəhruz, anası Günay, əmisi, bibisi, xalası və dayıları təbrik edirlər. Qoy Zəhra qızımızın üzündən gülüş heç vaxt əskilməsin. Vətənə layiqli övlad olsun.**

## İTMİŞDİR

İsgəndərov Şahin Ağasəlim oğluna məxsus 18 iyun 2007-ci il tarixdə alınmış Seriya AA 298672 nömrəli sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Siyəzən Magistral Qaz Kəmərləri Sahəsinin kollektivi xidmət rəisi Əhmədov Şahlara atası

**Əhmədov İnqilabın**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı: Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1ª

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 1280
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83